ədalət.- 2020.- 19 noyabr.- S.3.

# Nəriman Nərimanovun Anadolu sevdası, Atatürk ilə qardaşlığı

**İstiqlal Savaşının ən ağır günlərinin birində, 3 may 1920-ci il tarixində Atatürk Şərq Cəbhəsi Komandanı Kazım Qarabəkirə bu məktubu yazır:"Çətin durumdayıq, pulumuz qalmadı,ölkə daxilində və xaricdə borc alabiləcəyimiz bir qaynaq yoxdu. Azərbaycan hökumətindən borc pul almağımız üçün gərəkli tədbirlərin görülməsini rica edirəm. "Qarabəkir gərəklivacib tədbirlərin görüləcəyini bildirir. Nəriman Nərimanov5 may 1920-ci il günündə Bakıya gəlir və mövcud durumu araşdırıb dəyərləndirir. Nərimanov 19avqust 1920-ci il tarixində TBMM-ə (Türkiyə Böyük Millət Məclisi -E.C.) məktub yazaraq əlindən gələn hər cür yardımı göstərəcəyini bildirir.Nərimanovun məktubuTBMM-də oxunarkənalqışdan yer göy titrəmişdir.Mustafa Kamal Paşa 1920-ci ilin avqustunda ədəbiyyatçı Məmduh Şövkət Əsəndalı Azərbaycana ilk səfir olaraq göndərir. Tam bir il sonra Azərbaycan da İbrahim Əbilov Ankaraya səfir təyin edir. Bu təyin Atatürkü və TBMM-ni çox məmnun edir. Atatürk Azərbaycan bayrağını öz əliylə asır. Atatürk Məclisdəki çıxışında Rumeli və Anadolu Türklərinin Azərbaycanlı qardaşlarının onlara bəslədikləri duyğularını bildiklərini ifadə edir və "Yaşasın Tükiyə-Azərbaycanqardaşlığı" deyir.**

TBMM 1921-ci ilin fevralında Ali Fuad Cəbəsoy, Yusif Kamal Tengirşək və Dr.Rza Nurdan ibarət bir heyəti danışıqlar aparmaq üçün Moskvaya göndərir. Atatürk heyətə ilk öncə Bakıya getməsini, Nəriman Nərimanovla görüşüb onun məsləhətlərini aldıqdan sonra Moskvaya yola düşməyi təklif etmişdi.Heyət Bakıda Nərimanov ilə görüşüb məsləhətləşərkən Nərimanov bu heyətin Stalin,Rus və Erməni əngəlləriylə qarşılaşaraq Lenin ilə görüşmələrinin mümkün olmayacağı qərarına gəlir. Ən güvəndiyi şəxslərdən biri olan Behbud Şaxtaxtinskini bələdçilik etmək üçün heyətə daxi edərək müsafirlərini Moskvaya yola salır. Nərimanov Leninə "Əziz Vladimir İliç" sözləriylə başlayan uzunbir məktub yazır və məktubu Leninə təqdim etmək üçün heyətə verir. Heyət Lenin ilə





görüşmək üçün heç bir yolla imkan tapa bilmir. Çünkü xarici işlər vəkili (xalq xarici işlər komissarı-E.C.) Çiçerin Erməni tərəfdarı olduğundan əngəllər törədir . Nərimnaov bunları əvvəlcədən təxmin etdiyinə görə Stalin ilə görüşməyi heyətə təklif etmişdi. Heyət Lenin ilə görüşə bilməsə də məktubu ona çatdıra bilirlər. Lenin məktubu diqqətlə oxuduqdan sonra onu Kommunist Partiyasının rəhbər şəxslərinə göndərir. Nərimanov Rusiyada yaşananları və partiyanın problemlərini də bu məktubda ifadə edirdi. Çiçerinin əngəllərinə baxmayaraq heyət Stalin ilə görüşə bilir. Çiçerinin əngəllərini aşaraq Stalinin dətəsiriylə 21 mart 1921-ci il tarixində Rusiya ilə Dostluq Anlaşmasıimzalanır.Bu Anlaşma Rusiyadan bir milyon qızıl rubl alındı və Naxçıvanın Muxtar Respublika olaraq Azərbaycana bağlanması təmin edildi. Nəriman Nərimanovun Leninə yazdığı məktub olmasaydı bu anlaşmanın imzalanması mümkün deyildi.Beləliklə Ankara Beynəlxalq ölçülü bir dövlət tərəfindən tanınmış oldu.

Ancaq daha bir çətin durum yarandıqda yenə təcili olaraq Nəriman Nərimanovdan yardım istənildi. Nərimanov Bakıdakı Azəri (müəllif Azərbaycan Türkü demək istəyir -E.C.) olmayanların qarşı çıxmalarına baxmayaraq 500kq qızıl göndərir. Nərimanov Türkiyənin ehtiyacı olan neft məhsullarını müntəzəm şəkildə göndərdiyi üçün Qurtuluş Savaşında sıxıntı çəkilməmişdir. Nərimanov daha sonra Rusiyadan alınan (Türküstandan Rusiyaya göndərilən -E.C.) 10 milyon qızıl rubl da Ankaraya çatırmışdır. Nəriman Nərimanovun 23 mart 1921-ci il tarixində Atatürkə göndərdiyi məktub eyni millətin iki cocuğunun birinin digərinə olan duyğularının ifadəsini ortaya qoyur:"Qardaş qardaşa borc verməz, qardaş hərdurumda qardaşının əlindən tutar. Biz qardaşıq, vəzifəmizi yerinə yetiririk." Nərimanov Qurtuluş sonrasında Anadolunun ruh yüksəlişi üçün əlindən gələni etmişdir.

**Nəriman Nərimanov mükəmməl təhsil və tərbiyə aldığı üçün yüksək səviyyədə bilikli, əxlaqlı örnək şəxsiyyət sahibiydi.Onun xalqı və insanlıq üçün qurduğu xəyallarını- arzularını məhv etdilər. O,çarın insanlıqdan xaric rejimindən qurtuluşu kommunizmdə aramış, amma onu tapa bilməmişdir... Onun ölümü insanlığı işiqlandıra biləcək bir ulduzun axmasıdır. Onu və onun düşüncələrini yaşatmaq, xəyallarını gerçəkləşdirmək hamımızın borcudur.**

***

***Bu yazı Türkiyədə bu yaxınlarda dünyasını dəyişmiş olan (ruhu şad və yeri cənnət olsun!) Prof .Dr.Ali Özdənin Nəriman Nərimanovhaqqında bir məqaləsinin qismidir. Məqalənin digər qismi Nəriman Nərimanovun həyat və fəaliyyətinin yığcam izahını əhatə edir. Prof.Dr.Ali Özdən çox səmimi , candan Atatürkçülüyü ilə bilinənm bir şəxsiyyət idi. Nəriman Nərimanovun Türkiyədəki Qurtuluş Savaşıyla bağlı münasibət və fəaliyyəti Hüseyin Adıgüzəlin 2004-cü ildə İstanbulda "İləri" nəşriyyatında buraxılan "Atatürk, NərimanNərimanov və Kurtuluş Savaşımız "adlı,yenə eyni nəşriyyatda 2005-ci ildə çıxan "Nərimanov Məktublar" adlı kitablarında geniş ölçüdə işiqlandırılıb.***

**Təqdim etdi:**
**Elman Cıvıroğlu**